public council.az

ictimaishura.az

# İCTİMAİ ŞURA
# PUBLIC COUNCIL




“Mən bir daha demək istəyirəm ki, ictimai nəzarət olmasa, biz istəyimizə nail ola bilmərik. İctimai nəzarət nə deməkdir? Vətəndaşlar daha fəal olmalıdırlar. Onlar xoşagəlməz hallarla üzləşəndə bu barədə məlumat verməlidirlər ki, biz işləri tənzimləyək, xoşagəlməz halların qarşısını alaq.”

***İlham Əliyev***

Azərbaycan Respublikasının Prezidenti

№ 04

Energetika Nazirliyi yanında İctimai Şuranın fəaliyyəti 2021 - 2023

# Energetika Nazirliyi yanında İctimai şuranın fəaliyyəti

**PUBLICCOUNCIL.AZ**
**ICTIMAISHURA.AZ**

***İnformasiya bülleteni açıq mənbələrdə yayımlanan məlumatlar əsasında hazırlanıb.***

Bakı şəhəri - 2023

## Energetika Nazirliyi yanında ictimai şuranın fəaliyyəti 2021- 2023

2021-ci ildə Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyət istiqamətləri üzrə hüquqi aktların qəbulunda, nazirliyin fəaliyyətinə ictimai nəzarətin təşkilində vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının iştirakını təmin etmək məqsədilə ictimai şuranın yaradılması prosesinə başlanılıb.

Energetika Nazirliyi yanında ictimai şura üzvlüyünə namizədlərin irəli sürülməsi prosesinə 26 yanvar 2021-ci il tarixindən başlanıldı. Namizədlərin irəli sürülməsi və qeydə alınması prosesi 20 iş günü müddətində, yəni 22 fevral tarixində yekunlaşıb.

İctimai şura üzvlərinin say həddi 7 nəfər müəyyən edilib. Müvafiq sahədə fəaliyyət göstərən hər bir vətəndaş cəmiyyəti institutu ictimai şura üzvlüyünə yalnız bir namizəd irəli sürmək imkanı yaradılıb.

*Namizədliyi qeydə alınması üçün aşağıdakı sənədlərin tələb olunub:*

- *Namizədin şəxsiyyət vəsiqəsinin surəti;*
- *Namizədin tərcümeyi-halı;*
- *Namizəd hər hansı bir vətəndaş cəmiyyəti institutunun üzvü olduğu halda həmin üzvlüyü təsdiq edən sənədin surəti;*
- *Şəxsin müvafiq sahə üzrə təcrübəyə və ya biliyə malik olmasını sübut edən sənəd (olduğu halda əmək kitabçasının surəti, əmək kitabçası olmadıqda isə məlumatı təsdiqləyəcək digər sənədlər).*

İctimai şura üzvlüyünə namizədlərin irəli sürülməsi ilə bağlı tələb olunan məlumatlar elektron poçt (minenergy@minenergy.gov.az) vasitəsi ilə qəbul edilib.

Həmin dövrdə 10 vətəndaş cəmiyyəti institutunun nümayəndəsinin namizədliyi qeydə alınıb.

Seçkilərdə səsvermə hüququ əldə etmək istəyən vətəndaş cəmiyyəti institutlarından 8 mart tarixinədək öz təmsilçiləri (1 nəfər olmaqla) haqqında zəruri məlumatları – adı, soyadı, atasının adı, təvəllüdü, yaşayış yeri və əlaqə vasitələrini ehtiva edən cədvəli,

həmçinin şəxsiyyət və üzvlük vəsiqələrinin surətini elektron poçt ünvanına göndərməklə Seçki Komissiyasına təqdim ediblər.

Energetika Nazirliyi yanında ictimai şuraya seçkilərin keçirilməsi ilə bağlı birgə yığıncaqda iştirak üçün 52 vətəndaş cəmiyyəti institutu müraciət edib.



Energetika Nazirliyi yanında ictimai şuraya seçkilərin keçirilmə vaxtı 18 mart 2021-ci il tarixdə saat 11:00-dan 15:00-dək müəyyən keçirilib.

Qeyd edək ki, ictimai şuraya seçilmək üçün cəmi bir nəfərin yetərli səs topladığı, ictimai şuranın üzvlərinin say həddinin isə yeddi nəfər olduğu nəzərə alınmaqla, boş qalan yerlərə təkrar seçkilər keçirilib.



Seçki Komissiyasının 19 mart 2021-ci il tarixli qərarı ilə 30 mart 2021-ci il tarixində saat 11:00-dan 13:00-dək ictimai şuraya boş qalan yerlər üçün təkrar seçkilər keçirilib.

Beləliklə, 18 mart və 30 mart tarixlərində keçirilmiş seçkilərin ümumi nəticələrinə görə, ictimai şuranın 7 nəfərdən ibarət tərkibi seçilib.

## Energetika Nazirliyi yanında
## İctimai şuranın tərkibi
## 2021 – 2023

1. **Tahirov Camal Fərrux oğlu** - “Azad İstehlakçılar” İB-nin Energetika Komissiyasının sədri, İctimai Şuranın sədri

2. **Nurməmmədov Qurban Rəcəb oğl**u - “Energetika və Ekologiya” İB-nin təsisçisi**,** İctimai Şuranın sədr müavini

3. **Əliyev Fərhad Fəqan oğlu** - “Beynəlxalq Ekoenergetika Akademiyası”nın vitse prezidenti, İctimai Şuranın katibi

4. **Adbullayeva Mehriban Əli qızı** - “Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi” İB-nin sədri

5. **Cavadlı Mədaxil Məqatil oğlu** - “Əlil Sahibkarlar Təşkilatı” İB-nin sədr müavini

6. **Həsənov Sadiq Hüseyn oğlu** - “Sağlam Həyata Doğru” İB-nin sədri

7. **Mehdiyeva Aybəniz İbrahim qızı** - “Sosial-İqtisadi və Ekoloji İnkişaf” İB-nin sədr müavini

## Energetika naziri ictimai şuranın üzvləri ilə görüşüb



**15 aprel 2021**

**Energetika naziri Pərviz Şahbazov Energetika Nazirliyi yanında yeni yaradılmış ictimai şuranın üzvləri ilə görüşüb.**

Nazir ictimai şuraya seçilmiş üzvləri təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizdə dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi və ictimai iştirakçılığa xüsusi diqqət yetirdiyini qeyd edib, dövlət başçısının Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi və ictimai nəzarətin gücləndirilməsi ilə bağlı müvafiq vəzifələrin müəyyən edildiyini diqqətə çatdırıb.

Görüşdə aidiyyəti sahələr üzrə yeni normativ-hüquqi aktların layihələrinin hazırlanması və müvafiq qanunvericiliyin

təkmilləşdirilməsi işlərində ictimai şuranın iştirakına geniş şəraitin yaradılacağı, şura üzvlərinin rəy və təkliflərinə diqqətlə yanaşılacağı vurğulanıb. Digər sahələr üzrə də ictimai şuranın üzvləri ilə sıx əməkdaşlıq şəraitində uğurla fəaliyyət göstəriləcəyinə əminlik ifadə olunub. Görüş zamanı ictimai şuranın üzvləri seçkilərin şəffaf və ədalətli keçirildiyinə görə təşəkkür edərək, əməkdaşlığa hazır olduqlarını bildiriblər.

Sonda ictimai şuranın üzvlərinə vəsiqələr təqdim edilib.



Energetika Nazirliyi yanında ictimai şuranın 15.04.2021-ci il tarixli protokoluna əsasən, səsvermə yolu ilə Camal Tahirov ictimai şuranın sədri, Qurban Nurməmmədov sədr müavini, Fərhad Əliyev isə ictimai şuranın katibi seçiliblər.

## Agentlikdə İctimai Şura üzvləri ilə görüş keçirilib

**05 avqust 2021**

Enerji Məsələlərini Tənzimləmə Agentliyində (AERA) Energetika Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib.

AERA-nın İdarə Heyətinin sədri Samir Axundov ictimai əlaqələrin gücləndirilməsinin, vətəndaş – İctimai Şura – AERA arasında sıx dialoqun qurulması baxımından bu kimi görüşlərin əhəmiyyətini vurğulayıb.

Bununla yanaşı, Samir Axundov İctimai Şura üzvləri tərəfindən müvafiq qanun layihələrinə rəy və təkliflərin verilməsini yüksək qiymətləndirdiyini qeyd edərək AERA-nın fəaliyyət istiqamətlərinə uyğun olaraq normativ hüquqi aktların təkmilləşdirilməsi və Nazirlər Kabinetinin müvafiq tapşırıqlarının icrası məqsədilə hazırlanmış normativ hüquqi akt layihələri, eləcə də istehlakçı hüquqlarının müdafiəsi, vətəndaş müraciətlərinin araşdırılmasında şəffaflığın təmin olunması və operativ cavablandırılması yönündə həyata keçirilən tədbirlər ilə bağlı görüş iştirakçılarına geniş məlumat verib.



Energetika Nazirliyi yanında İctimai Şuranın sədri Camal Tahirov isə ictimai rəyin önəmini qeyd edərək əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinin ictimaiyyətlə əlaqələrin gücləndirilməsinə töhfə verəcəyini bildirib.

Görüş zamanı həmçinin İctimai Şura üzvləri tərəfindən istehlakçıları maraqlandıran məsələlər diqqətə çatdırılıb və bu istiqamətdə müzakirələr aparılıb.

## Energetika Nazirliyində ictimai şuranın üzvləri ilə görüş keçirilib



**25 noyabr 2021**

Görüşdə Energetika Nazirliyinin rəhbər vəzifəli şəxsləri tərəfindən nazirliyin son dövrlərdə gördüyü işlərdən bəhs edilib, xüsusilə bərpa olunan enerji sahəsində həyata keçirdiyi layihələr haqqında geniş məlumat verilib. Müzakirələr zamanı ictimai şura üzvləri tərəfindən ictimaiyyəti maraqlandıran məsələlərə toxunulub, nazirliyin fəaliyyət istiqamətlərinə dair irəli sürülən rəy və təkliflər dinlənilərək ətraflı cavablandırılıb.



PUBLICCOUNCIL.AZ
ICTIMAISHURA.AZ